M ü n d ə r i c a t

Sıra sayı	Sahələrin adı	Səhifə №
1	Ərazi və əhali	3
2	Makroiqtisadi göstəricilər	4
3	Sənaye	5
4	Kənd təsərrüfatı	7
5	Tikinti	10
6	Nəqliyyat	11
7	Rabitə	12
8	Pərakəndə ticarət dövriyyəsi	13
9	Əhaliyə göstərilən ödənişli xidmətlər	14
10	Əmək bazarı	15

Xüsusi işarələr

hadisə baş verməmişdir “ – “

məlumat mövcud deyil “ ... “

müqayisə mümkün deyil “ x “

Saatlı rayonu üzrə 2026-cı ilin yanvar-sentyabr aylarında sosial, iqtisadi inkişaf haqqında rayon statistika idarəsinin təhlili məruzəsi

Ərazi və əhali

Rayonun ərazisi 1,18 min kvadrat kilometrə, əhalinin sıxlığı isə bir kvadrat kilometrə 95,0 nəfərə bərabərdir. Rayonda 1 şəhər və 35 kənd inzibati ərazi dairəsi mövcuddur.

İlkin məlumata əsasən 2026-cı il oktyabr ayının 1-i vəziyyətinə rayonun əhalisi 112047 nəfər olmuş və əhalinin 49,7 faizini kişilər, 50,3 faizini qadınlar təşkil edir. Əhalinin 20,3 min nəfəri və ya 18,1 faizi şəhər yerlərində, 91,7 min nəfəri və ya 81,9 faizi isə kənd yaşayış məntəqələrində yaşayır.

Əhalinin 21,8 faizini 0-14 yaşda, 69,6 faizini 15-64 yaşda, 8,6 faizini isə 65 və yuxarı yaşda olanlar təşkil edir. 2019-cu ildə keçirilmiş əhalinin siyahıyaalınmasının nəticəsinə əsasən əhalinin 88,9 faizini azərbaycanlılar, 11,1 faizini isə digər millətlər təşkil edir.

Cədvəl 1

Bəzi demoqrafik göstəricilər

Göstəricilərin adı	Nəfər		Əhalinin hər min nəfərinə	
	2026-cı ilin yanvar-sentyabr aylarında*	2025-ci ilin yanvar-sentyabr aylarında	2026-cı ilin yanvar-sentyabr aylarında*	2025-ci ilin yanvar-sentyabr aylarında
Ümumi artım	258	448	3,1	5,4
Təbii artım	252	452	3,0	5,5
Doğulanlar	672	863	8,0	10,4
Ölənlər	420	411	5,0	4,9
o cümlədən:				
1 yaşa qədər ölənlər	3	6	4,5	0,1
Miqrasiya saldosu	6	-4	0,1	-0,1
Nikahlar	262	416	3,1	5,0
Boşanmalar	102	137	1,2	1,6

*** İlkin məlumat**

2026-cı ilin yanvar-sentyabr aylarında 672 doğulan körpə və 420 ölüm halı qeydə alınmışdır. Vəfat edənlərin 3 nəfəri 1 yaşa qədər ölən uşaqlar olmuşdur.

2025-ci ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər min nəfərinə doğulanların sayı azalaraq 10,4-dən 8,0-ə düşmüş, ölənlərin sayı isə 4,9-dan 5,0-ə qədər artmışdır.

Cari ilin yanvar-sentyabr aylarında 262 nikah, 102 boşanma halları qeydə alınmış və əvvəlki ilin eyni dövrü ilə müqayisədə əhalinin hər min nəfərinə nikahların sayı azalaraq 5,0-dən 3,1-ə, boşanmaların sayı isə 1,6-dan 1,2-yə düşmüşdür.

Qrafik 1



Makroiqtisadi göstəricilər

2026-cı ilin yanvar-sentyabr aylarında ümumi məhsul buraxılışının həcmi əvvəlki ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 0,5 faiz artaraq 352365,2 min manat olmuşdur.

Ümumi məhsul buraxılışının həcmi müqayisəli qiymətlərlə nəqliyyat və anbar təsərrüfatı sahəsi üzrə 47,7 faiz, sənaye sahəsi üzrə 3,3 faiz, ticarət: nəqliyyat vasitələrinin təmiri sahəsi üzrə 0,8 faiz artmış, informasiya və rabitə sahəsi üzrə 8,4 faiz, tikinti sahəsi üzrə isə 2,6 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsi üzrə isə 1,3 faiz azalmışdır.

Cari ilin yanvar-sentyabr aylarında pərakəndə ticarət dövriyyəsinin həcmi müqayisəli qiymətlərlə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 0,5 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi müqayisəli qiymətlərlə 1,4 faiz, nəqliyyat sektorunda fiziki şəxslər üzrə yük daşınması 5,7 faiz, nəqliyyat sektorunda fiziki şəxslər üzrə sərnişin daşınması 6,9 faiz çox, əsas kapitala yönəldilmiş investisiyalar isə 28,6 faiz az olmuşdur. 2026-cı ilin yanvar-avqust ayları ərzində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 674,5 manat və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 25,5 manat və ya 3,9 faiz çox olmuşdur.

Cədvəl 2

İqtisadiyyatın əsas sahələrində məhsul buraxılışı

Göstəricilərin adı	2026-cı ilin yanvar-sentyabr aylarında faktiki qiymətlərlə (min manatla)*	2025-ci ilin yanvar-sentyabr aylarında faktiki qiymətlərlə (min manatla)	Əvvəlki ilin eyni dövrünə nisbətən fiziki həcm indeksi, faizlə
Ümumi məhsul buraxılışının həcmi, cəmi	**352365,2**	**338494,8**	**100,5**
o cümlədən:			
Sənaye	50899,6	47802,4	103,3
Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq	196706,1	193877,1	98,7
Tikinti	6621,1	6799,9	97,4
Nəqliyyat və anbar təsərrüfatı	7884,6	5083,0	147,7
İnformasiya və rabitə	1554,4	1666,8	91,6
Ticarət: nəqliyyat vasitələrinin təmiri	88699,4	83265,6	100,8

*** İlkin məlumat**

Cədvəl 3

Bəzi makroiqtisadi göstəricilər

Göstəricilərin adı	2026-cı ilin yanvar-sentyabr aylarında faktiki qiymətlərlə (min manatla)*	2025-cı ilin yanvar-sentyabr aylarında faktiki qiymətlərlə (min manatla)	2025-ci ilin müvafiq dövrünə nisbətən, faizlə
Əsas kapitala yönəldilmiş investisiya	5846,2	8190,8	71,4
Pərakəndə ticarət dövriyyəsi	271252,0	255416,0	100,5**
Əhaliyə göstərilən ödənişli xidmətlər	34347,0	32100,0	101,4**
Nəqliyyat sektorunda yük daşınması, min ton	447,0	423,0	105,7
Nəqliyyat sektorunda sərnişin daşınması, min sərnişin	5785,0	5410,0	106,9
Orta aylıq nominal əməkhaqqı yanvar-avqust, manat	674,5	649,0	103,9

*** İlkin məlumat**

** **Müqayisəli qiymətlərlə**

Qrafik 2



Sənaye

2026-cı ilin yanvar-sentyabr ayları ərzində sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən faktiki qiymətlərlə 50899,6 min manatlıq və ya 2025-ci ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 3,3 faiz çox sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir. İstehsalın 84,1 faizi sənaye məhsulları, 15,9 faizi isə sənaye xarakterli xidmətlərdən ibarət olmuşdur.

Sənaye məhsulunun 84,1 faizi emal sektorunda, 14,0 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 1,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur. Ümumi istehsalda qeyri-dövlət sektoru 63,4 faiz, dövlət sektoru isə 36,6 faiz təşkil etmişdir.

1 oktyabr 2026-cı il tarixinə sənaye müəssisələrinin anbarlarında 5697,9 min manatlıq hazır məhsul qalığı olmuşdur.

Mal və xidmətlərin 43769,7 min manat və ya 86,0 faizi hüquqi şəxslər, 7129,9 min manat və ya 14,0 faizi isə fərdi sahibkarlar və ev təsərrüfatları tərəfindən istehsal olunmuşdur.

Sənaye istehsalçıları tərəfindən yanvar-sentyabr ayları ərzində 12478,2 ton pambıq mahlıcı, 16416,2 ton pambıq çiyidi, 316,8 ton pambıq tiftiyi (linti), 117,3 ton pambıq ulyuku, 616,5 ton biyan kipi istehsal olunmuşdur.

2026-cı ilin yanvar-sentyabr ayları ərzində müəssisələr tərəfindən istehsal olunmuş məhsulların miqdarı və əvvəlki ilin müvafiq dövrü ilə müqayisəsi aşağıdakı cədvəldə göstərilmişdir.

Cədvəl 4

Sənaye müəssisələri tərəfindən natura formasında istehsal olunmuş məhsullar müqayisəli (tonla)

Məhsulun adı	2026-cı ilin yanvar-sentyabr aylarında	2025-ci ilin yanvar-sentyabr aylarında	2025-ci ilin müvafiq dövrünə nisbətən, faizlə
Pambıq mahlıcı	12478,2	12790,2	97,6
Pambıq çiyidi	16416,2	15751,5	104,2
Pambıq tiftiyi (linti)	316,8	466,3	67,9
Pambıq ulyuku	117,3	71,3	164,5
Biyan kipi	616,5	553,5	111,4

Qrafik 3



Kənd təsərrüfatı

Rayonunun iqtisadiyyatında kənd təsərrüfatı mühüm yer tutur. 2026-ci ilin 9-ayı ərzində istehsal edilmiş kənd təsərrüfatı üzrə məhsul buraxılışı ilkin hesablamalara əsasən 196706,1 min manat təşkil etmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 1,3 faiz az olmuşdur. İstehsal olunmuş kənd təsərrüfatı məhsullarının 117433,6 min manatı, və ya 59,7 faizi bitkiçilik məhsullarının, 79272,5 min manatı və ya 40,3 faizi isə heyvandarlıq məhsullarının payına düşmüşdür.

Cədvəl 5

Kənd təsərrüfatının sahələri üzrə məhsul buraxılışı, min manat

Sahələrin adı	2026-cı il yanvar-sentyabr faktiki qiymətlərlə	2025-ci il yanvar-sentyabr faktiki qiymətlərlə	Ümumi istehsalda xüsusi çəki, faizlə
Kənd təsərrüfatı sahəsi	196706,1	193877,1	100,0
o cümlədən: bitkiçilik	117433,6	119043,4	59,7
heyvandarlıq	79272,5	74833,7	40,3

Bitkiçilik: 2026-cı ilin məhsulu üçün əkilmiş 52434,9 hektar sahədə payızlıq və yazlıq bitkiləri salamat qalmışdır ki, bunun da 48283,4 hektarı və ya 92,1 faizi əhali və fərdi sahibkarlar üzrə, 4151,5 hektar və ya 7,9 faizi kənd təsərrüfatı müəssisələrinin payına düşür.

Ümumi əkin sahəsinin 22684,5 hektarına (43,3 faiz) çoxillik otlar, 14432,6 hektarına (27,5 faiz) dənli və dənli paxlalılar, 11949,8 hektarına (22,8 faiz) texniki bitkilər, 2175,0 hektarına (4,2 faiz) bostan, 751,0 hektarına (1,4 faiz) tərəvəz, 442,0 hektarına (0,8 faiz) isə kartof əkilmişdir. Sahələrdən məhsul yığımı davam edir. 1 oktyabr 2026-cı il tarixinə 14122,9 hektar sahədə taxıl məhsulu biçilmiş, həmin sahədən 56745,4 ton məhsul toplanmışdır kı, bu da hər hektardan 40,2 sentner məhsul deməkdir.

Əkilmiş 168,1 hektar sahədən 1218,7 ton və ya hər hektardan 72,5 sentner dən üçün qarğıdalı, 126,6 hektar sahədən 413,4 ton və ya hər hektardan 30,6 sentner darı məhsulu, 6,5 hektar sahədən 24,3 ton və ya hər hektardan 37,4 sentner lobya məhsulu, 1 hektar sahədən 5,9 ton və ya hər hektardan 59,0 sentner dən üçün günəbaxan, 442,0 hektar sahədən 8879,8 ton və ya hər hektardan 200,9 sentner kartof, 751,0 hektar sahədən 22129,9 ton və ya hər hektardan 294,7 sentner tərəvəz, 2175,0 hektar sahədən 79104,5 ton və ya hər hektardan 363,7 sentner bostan, 3289,5 hektar sahədən 6337,7 ton və ya 19,3 sentner meyvə və giləmeyvə, 22684,5 hektar sahədən 178048,8 ton və ya hər hektardan 78,5 sentner çoxillik otlar və 90,0 ton üzüm məhsulu toplanmışdır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə hər hektardan 11,9 sentner dən üçün qarğıdalı, 0,8 sentner darı, 1,0 sentner lobya, 2,0 sentner dən üçün günəbaxan, 0,1 sentner kartof, 5,6 sentner tərəvəz, 16,4 sentner bostan, 0,5 sentner meyvə və giləmeyvə, 0,9 sentner çoxillik otlar məhsulu çox toplanmışdır.

Rayonda pambıq tədarükü davam edir. 01 oktyabr 2026-cı il tarixinə əkilmiş 11939,0 hektar sahədən 3956,3 ton xam pambıq tədarük edilmişdir ki, bu da respublika üzrə pambıq tədarükündə ən yaxşı göstəricilərdən biridir. Sahələrdə kənd təsərrüfatı məhsullarının yığımı davam edir.

Cədvəl 6

Yazlıq bitkilərin əkin sahəsi (bütün təsərrüfat kateqoriyaları üzrə), ha

Bitkiçilik məhsullarının adı	2026-cı il yanvar-sentyabr	2025-ci il yanvar-sentyabr	2025-ci ilin müvafiq dövrünə nisbətən fərqi +,-
Cəmi əkin sahəsi	**52434,9**	**52790,9**	**-356,0**
Dənlilər və dənli paxlalılar-cəmi	**14432,6**	**14119,0**	**313,6**
o cümlədən:			
buğda	7836,9	8224,0	-387,1
arpa	6286,0	5651,0	635,0
dən üçün qarğıdalı	168,1	178,0	-9,9
darı	126,6	55,0	71,6
lobya	6,5	11,0	-4,5
tritikale	8,5	-	8,5
Texniki bitkilər-cəmi	**11949,8**	**12642,1**	**-692,3**
o cümlədən:			
pambıq	11939,0	12634,1	-695,1
dən üçün günəbaxan	1,0	8,0	-7,0
süpürgə	9,8	-	9,8
Kartof	**442,0**	**425,0**	**17,0**
Tərəvəz	**751,0**	**743,3**	**7,7**
Bostan bitkiləri	**2175,0**	**2388,5**	**-213,5**
Meyvə və giləmeyvə	**3289,5**	**3284,9**	**4,6**
Çoxillik otlar	**22684,5**	**22473,0**	**211,5**

Cədvəl 7

Əsas bitkiçilik məhsullarının istehsalı (bütün təsərrüfat kateqoriyaları üzrə), ton

Bitkiçilik məhsullarının adı	2026-cı il yanvar-sentyabr	2025-ci il yanvar-sentyabr	2025-ci ilin müvafiq dövrünə nisbətən fərqi +,-
Dənlilər və dənli paxlalılar-cəmi	**58401,8**	**57010,4**	**1391,4**
o cümlədən:			
buğda	33359,6	34858,4	-1498,8
arpa	23385,8	20869,6	2516,2
dən üçün qarğıdalı	1218,7	1078,6	140,1
darı	413,4	163,8	249,6
lobya	24,3	40,0	-15,7
Texniki bitkilər-cəmi	**3962,2**	**3767,5**	194,7
o cümlədən:			
pambıq	3956,3	3721,9	234,4
dən üçün günəbaxan	5,9	45,6	-39,7
Kartof	**8879,8**	**8532,7**	**347,1**
Tərəvəz	**22129,9**	**23051,9**	**-922,0**
Bostan bitkiləri	**79104,5**	**82946,5**	**-3842,0**
Meyvə və giləmeyvə	**6337,7**	**6165,4**	**172,3**
Üzüm	**90,0**	**1368,9**	**-1278,9**
Çoxillik otlar	**178048,8**	**174298,8**	**3750,0**

Cədvəl 8

Məhsuldarlıq (bütün təsərrüfat kateqoriyaları üzrə), sentner/ha

Bitkiçilik məhsullarının adı	2026-cı il yanvar-sentyabr	2025-ci il yanvar-sentyabr	2025-ci ilin müvafiq dövrünə nisbətən fərqi +,-
Dənlilər və dənli paxlalılar-cəmi	**40,5**	**40,4**	**0,1**
o cümlədən:			
buğda	42,6	42,4	0,2
arpa	37,2	36,9	0,3
dən üçün qarğıdalı	72,5	60,6	11,9
darı	30,6	29,8	0,8
lobya	37,4	36,4	1,0
Texniki bitkilər-cəmi	-	**-**	-
o cümlədən:			
pambıq	30,1	29,7	0,4
dən üçün günəbaxan	59,0	57,0	2,0
Kartof	**200,9**	**200,8**	**0,1**
Tərəvəz	**315,7**	**310,1**	**5,6**
Bostan bitkiləri	**363,7**	**347,3**	**16,4**
Meyvə və giləmeyvə	**19,3**	**18,8**	**0,5**
Çoxillik otlar	**78,5**	**77,6**	**0,9**

Heyvandarlıq: 2026-cı ilin oktyabr ayının 1-i vəziyyətinə bütün təsərrüfat kateqoriyaları üzrə iribuynuzlu mal-qaranın sayı 70986 baş, o cümlədən, inək və camışların sayı 34617 baş, qoyun və keçilərin sayı 114260 baş olmuşdur. 2025-ci ilin müvafiq dövrünə nisbətən iribuynuzlu mal-qaranın sayı 1081 baş artmış, qoyun və keçilərin sayı isə 2157 baş azalmışdır.

İribuynuzlu mal-qaranın tərkibində inək və camışların sayı əvvəlki ilin müvafiq dövrünə nisbətən 975 baş artmışdır.

Heyvandarlıq sahəsində fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələri üzrə 2026-cı ilin oktyabr ayının 1-i vəziyyətinə iribuynuzlu mal-qaranın sayı 3374 baş, o cümlədən, inək və camışların sayı 2091 baş, qoyun və keçilərin sayı isə 4526 baş olmuşdur. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə iribuynuzlu mal-qaranın sayı 652 baş, o cümlədən, inək və camışların sayı 651 baş artmış, qoyun və keçilərin sayı isə 3720 baş azalmışdır.

Heyvandarlıq sahəsində 18 kənd təsərrüfatı müəssisəsi fəaliyyət göstərir.

Cədvəl 9

Mal-qaranın sayı (bütün təsərrüfat kateqoriyaları üzrə), baş

Göstəricilərin adı	01.10.2026-cı il tarixinə	01.10.2025-ci il tarixinə	2025-ci ilin müvafiq dövrünə nisbətən fərqi +,-
İribuynuzlu mal-qara	70986	69905	1081
o cümlədən:			
inək və camışlar	34617	33642	975
Qoyun və keçilər	114260	116417	-2157

Qrafik 4



2026-cı ilin yanvar-sentyabr ayları ərzində ət istehsalı (diri çəkidə) 5951,5 ton, süd istehsalı 32404,1 ton, yumurta istehsalı 11500,0 min ədəd, yun istehsalı 240,0 ton, barama istehsalı isə 0,2 ton olmuşdur. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,9 ton ət, 2,0 ton süd, 82,0 min ədəd yumurta, 3,0 ton yun çox istehsal olunmuşdur. Barama istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,1 ton az olmuşdur.

Cədvəl 10

Heyvandarlıq məhsullarının istehsalı

Məhsulun adı	Ölçü vahidi	2026-cı ilin yanvar-sentyabr aylarında	2025-ci ilin yanvar-sentyabr aylarında	2025-ci ilin müvafiq dövrünə nisbətən,	
				+;-	faizlə
Ət (diri çəkidə)	ton	5951,5	5946,6	4,9	100,08
Süd	ton	32404,1	32402,1	2,0	100,01
Yumurta	min ədəd	11500,0	11418,0	82,0	100,72
Yun	ton	240,0	237,0	3,0	101,27
Barama	ton	0,2	0,3	-0,1	66,67

Tikinti

2026-cı ilin yanvar-sentyabr ayları ərzində tikinti təşkilatları və fərdi sahibkarlar tərəfindən faktiki qiymətlərlə 6621,1 min manat həcmində tikinti işləri yerinə yetirilmişdir ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 2,6 faiz az olmuşdur. Görülmüş tikinti işlərinin 5370,8 min manatını və ya 81,1 faizini inşa, yenidənqurma və bərpa işləri, 1250,3 min manatını və ya 18,9 faizini cari təmir işləri təşkil etmişdir.

2026-cı ilin yanvar-sentyabr ayları ərzində bütün maliyyə mənbələri hesabına əsas kapitala yönəldilmiş investisiyanın həcmi 5846,2 min manat olaraq əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 28,6 faiz az olmuşdur. Əsas kapitala yönəldilmiş investisiyaların 4707,2 min manatı və ya 80,5 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur. İstifadə olunan investisiyanın 1537,1 min manatı və ya 26,3 faizi dövlət vəsaiti, 4309,1 min manatı və ya 73,7 faizi isə qeyri dövlət vəsaitləri hesabına olmuşdur.

Cari ilin yanvar-sentyabr ayları ərzində əhalinin şəxsi vəsaiti hesabına ümumi sahəsi 22338,5 kv.m olan fərdi yaşayış evləri istifadəyə verilmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 414,5 kv.m və ya 1,8 faiz az olmuşdur.

Yerinə yetirilmiş tikinti işlərinin əvvəlki ilin müvafiq dövrü ilə müqayisəsi (faktiki qiymətlərlə) aşağıdakı cədvəldə göstərilmişdir.

Cədvəl 11

Yerinə yetirilmiş tikinti işlərinin dəyəri, min manat

Sahələrin adı	2026-cı ilin yanvar-sentyabr aylarında	2025-ci ilin yanvar-sentyabr aylarında	2025-ci ilin müvafiq dövrünə nisbətən, faizlə
Cəmi tikinti işləri	6621,1	6799,9	97,4
o cümlədən: inşa, yenidənqurma və bərpa işləri	5370,8	4141,7	129,7
əsaslı təmir işləri	-	621,9	-
cari təmir işləri	1250,3	2036,3	61,4

Qrafik 5



Nəqliyyat

2026-cı ilin yanvar-sentyabr ayları ərzində nəqliyyat müəssisələri və nəqliyyat sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən istehsal olunmuş və göstərilmiş xidmətlərin həcmi 7884,6 min manat olmuş və ötən ilin müvafiq dövrünə nisbətən 2801,6 min manat və ya müqayisəli qiymətlərlə 47,7 faiz artmışdır. Məhsul buraxılışının 4913,3 min manatı hüquqi şəxslərin, 2971,3 min manatı isə fiziki şəxslərin payına düşür. 2026-cı ilin yanvar-sentyabr ayları ərzində avtomobil nəqliyyatı ilə 5785,0 min sərnişin, 447,0 min ton yük daşınmışdır ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 375,0 min və ya 6,9 faiz çox sərnişin, 24,0 min ton və ya 5,7 faiz çox yük daşınmışdır.

Nəqliyyat sektorunda məhsul buraxılışı və fiziki şəxslər tərəfindən sərnişin və yük daşınmanın həcmi aşağıdakı cədvəldə göstərilmişdir.

Cədvəl 12

Nəqliyyat sektorunun əsas göstəriciləri

Sahələrin adı	2026-cı ilin yanvar-sentyabr aylarında	2025-ci ilin yanvar-sentyabr aylarında	2025-ci ilin müvafiq dövrünə nisbətən fərqi +,-
Nəqliyyat sektorunda məhsul buraxılışı (min manat)	7884,6	5083,0	2801,6
o cümlədən: hüquqi şəxslər üzrə	4913,3	2213,9	2699,4
fiziki şəxslər üzrə	2971,3	2869,1	102,2
Sərnişin daşınması, min sərnişin	5785,0	5410,0	375,0
Yük daşınması həcmi, min ton	447,0	423,0	24,0

Qrafik 6



Rabitə

2026-cı ilin yanvar-sentyabr ayları ərzində informasiya və rabitə sahəsində fəaliyyət göstərən müəssisələr tərəfindən müəssisə-təşkilatlara və əhaliyə göstərilən xidmətlərin (ƏDV-siz) faktiki qiymətlərlə dəyəri 1554,4 min manat olmuş və ötən ilin müvafiq dövrü ilə müqayisədə 112,4 min manat və ya müqayisəli qiymətlərlə 8,4 faiz az olmuşdur. Rabitə xidmətlərinin həcmindən əhaliyə göstərilən rabitə xidmətlərinin (ƏDV-siz) faktiki qiymətlərlə dəyəri 1400,4 min manat olmuş və əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 59,4 min manat az xidmətlər göstərilmişdir.

Cədvəl 13

İnformasiya və rabitə müəssisələri tərəfindən göstərilmiş xidmətlərin faktiki qiymətlərlə dəyəri, min manat

Göstəricilərin adı	2026-cı ilin yanvar-sentyabr aylarında	2025-ci ilin yanvar-sentyabr aylarında	2025-ci ilin müvafiq dövrünə nisbətən fərqi +,-
İnformasiya və rabitə xidmətlərindən əldə olunan gəlir (ƏDV-siz)	1554,4	1666,8	-112,4
ondan: əhaliyə göstərilən informasiya və rabitə xidmətlərinin dəyəri (ƏDV-siz)	1400,4	1459,8	-59,4

Qrafik 7



Pərakəndə ticarət dövriyyəsinin həcmi

2026-cı ilin yanvar-sentyabr ayları ərzində pərakəndə ticarət dövriyyəsinin həcmi 271252,0 min manat olmuşdur ki, bunun da 20118,4 min manatı və ya 7,4 faizi hüquqi şəxslərin, 251133,6 min manatı və ya 92,6 faizi fərdi sahibkarlar, bazar və yarmarkaların payına düşür.

Pərakəndə ticarət dövriyyəsi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 15836,0 min manat və ya müqayisəli qiymətlərlə 0,5 faiz çox olmuşdur.

Pərakəndə ticarət dövriyyəsinin 140508,0 min manatı və yaxud 51,8 faizi ərzaq malları, içkilər və tütün məmulatlarının, 130744,0 min manatı və yaxud 48,2 faizi qeyri-ərzaq mallarının payına düşür. Pərakəndə ticarət dövriyyəsinin 100,0 faizi özəl sektorun hesabına formalaşmışdır. Hesabat dövrünün sonuna pərakəndə ticarət şəbəkələrində mal qalığı 25230,0 min manat olmuşdur.

Cədvəl 14

Pərakəndə ticarət dövriyyəsinin həcmi, min manat

Göstəricilərin adı	Pərakəndə ticarət dövriyyəsinin həcmi, 2026-cı ilin yanvar-sentyabr aylarında	o cümlədən:		01.10.2026-cı il tarixinə mal qalığı
		ərzaq malları, içkilər və tütün məmulatları	qeyri-ərzaq malları	
Rayon üzrə cəmi	271252,0	140508,0	130744,0	25230,0
o cümlədən: Hüquqi şəxslər üzrə	20118,4	7271,9	12846,5	2916,8
Fərdi sahibkarlar, bazar və yarmarkalar üzrə	251133,6	133236,1	117897,5	22313,2
o cümlədən : Bazar və yarmarkalar üzrə	95115,0	49214,7	45900,3	-
Hüquqi şəxs yaratmadan ticarətlə məşğul olan fərdi sahibkarlar üzrə	156018,6	84021,4	71997,2	22313,2

Qrafik 8



Əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi

2026-cı ilin yanvar-sentyabr ayları ərzində əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi 34347,0 min manat olmuş və onun 9304,8 min manatı və ya 27,1 faizi hüquqi şəxslərin, 25042,2 min manatı və ya 72,9 faizi isə fərdi sahibkarların payına düşür.

Əhaliyə göstərilən ödənişli xidmətin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2247,0 min manat və ya müqayisəli qiymətlərlə 1,4 faiz artmışdır. Göstərilən ödənişli xidmətlərin həcmindən 4410,0 min manatı məişət xidməti olmuş və əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1336,0 min manat və ya müqayisəli qiymətlərlə 1,3 faiz çox olmuşdur.

2026-cı ilin yanvar-sentyabr ayları ərzində iaşə dövriyyəsinin həcmi 5978,0 min manat və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 533,0 min manat və ya müqayisəli qiymətlərlə 2,1 faiz çox olmuşdur.

Cədvəl 15

Əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi, min manatla

Göstəricilərin adı	Ödənişli xidmətlərin həcmi 2026-cı il yanvar-sentyabr	o, cümlədən; məişət xidməti
Rayon üzrə cəmi	34347,0	4410,0
o cümlədən : hüquqi şəxslər üzrə	9304,8	3,0
fərdi sahibkarlar üzrə	25042,2	4407,0

Qrafik 9



Əmək bazarı

Cari ilin yanvar-sentyabr ayları ərzində 21 yeni iş yeri açılmışdır ki, onların 12-si yeni yaradılmış hüquqi şəxslərin, 4-ü mövcud hüquqi şəxslərin, 5-i isə fəaliyyəti bərpa edilmiş hüquqi şəxslərin payına düşür.

Cədvəl 16

Yeni açılmış iş yerlərinin sayı haqqında məlumat (vahid)

Göstəricilərin adı	2026-cı ilin III rübündə	İlin əvvəlindən
Hüquqi şəxslər üzrə yeni açılmış iş yerlərinin sayı	14	21
o cümlədən: yeni yaradılmış hüquqi şəxslər üzrə	7	12
mövcud hüquqi şəxslər üzrə	2	4
fəaliyyəti bərpa edilmiş hüquqi şəxslər üzrə	5	5

Qrafik 10



2026-cı ilin oktyabr ayının 1-i vəziyyətinə rayonun iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 8187 nəfər və ya əvvəlki ilin eyni dövrünə nisbətən 141 nəfər az olmuşdur. Muzdla çalışan işçilərin 5202 nəfəri iqtisadiyyatın dövlət sektorunda, 2985 nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir. Muzdla işləyənlərin 34,4 faizi təhsil, 25,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 16,0 faizi sənaye, 6,2 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 5,6 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 3,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,9 faizi istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət, 2,0 faizi tikinti, 1,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 0,9 faizi peşə, elmi və texniki fəaliyyət, 0,5 faizi informasiya və rabitə, 0,5 faizi maliyyə və sığorta fəaliyyəti, 0,4 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 0,1 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar, 0,2 faizi isə digər sahələrdə xidmətlərin göstərilməsi sahələrində olmuşdur.

2026-cı ilin yanvar-avqust aylarında rayonun iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,9 faiz artaraq 674,5 manat olmuşdur. İqtisadiyyatın maliyyə və sığorta fəaliyyəti, dövlət idarəetməsi və müdafiə; sosial təminat və digər sahələrdə xidmətlərin göstərilməsi sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

Cədvəl 17

2026-ci ilin 1 sentyabr tarixinə işləyənlərin sayı və yanvar-avqust aylarında orta aylıq nominal əməkhaqqı barədə məlumat

Fəaliyyət növünün adı	2026-cı ilin yanvar-avqust aylarında		2025-ci ilin yanvar-avqust aylarında	
	İşləyənlərin sayı 01.09.2026-cı il tarixinə (nəfər)	Orta aylıq nominal əməkhaqqı (manat)	İşləyənlərin sayı 01.09.2025-ci il tarixinə (nəfər)	Orta aylıq nominal əməkhaqqı (manat)
1	2	3	4	5
Cəmi	**8187**	**674,5**	**8328**	**649,0**
Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq	261	648,4	323	657,8
Emal sənayesi	573	754,7	644	668,9
Elektirik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı	111	874,2	113	813,8
Su təchizatı, tullantların təmizlənməsi və emalı	622	654,9	661	534,0
Tikinti	160	566,2	318	606,5
Ticarət; nəqliyyat vasitələrin təmiri	2083	456,2	2094	412,5
Nəqliyyat və anbar təsərrüfatı	133	744,9	29	473,4
İnformasiya və rabitə	40	798,4	47	740,5
Maliyyə və sığorta	39	1792,1	43	1456,6
Daşınmaz əmlakla əlaqədar əməliyyatlar	11	426,0	11	442,6
Peşə, elm və texniki fəaliyyət	77	611,5	78	586,8
İnzibati və yardımçı xidmətlərin göstərilməsi	35	659,0	3	419,2
Dövlət idarəetməsi və müdafiə; sosial təminat	461	1002,3	505	905,0
Təhsil	2815	713,9	2617	761,1
Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi	508	813,4	553	775,7
İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət	240	651,2	272	622,2
Digər sahələrdə xidmətlərin göstərilməsi	18	1368,0	17	1344,5

Rəis müavini **Elnur Muradov**